AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASI

SƏRBƏST AUDİTOR

İCAZƏ: № 258

# MÜSTƏQİL AUDİTORUN HESABATI

“QARDAŞLAR MEBEL” QSC
AUDİTOR İ.İ.HACI-ƏZİZOV
MÜQAVİLƏ № 000396
TARİX: 28.02.2023

BAKI 2023

28 fevral 2023-cü il tarixli 000396 saylı müqaviləyə
əsasən aparılmış auditin nəticəsinə dair auditorun
yekun sənədlərinin

TƏHVİL – QƏBUL AKTI

Biz aşağıda imza edənlər:
İcraçı – Sərbəst auditor İ.Hacı-Əzizov və Sifarişçi – "QARDAŞLAR MEBEL" QSC-nin direktoru H.Mirzəyev bu aktı ona görə tərtib edirik ki, İcraçı tərəfindən 28 fevral 2023-cü il tarixli 000396 saylı müqavilənin şərtlərinə uyğun olaraq audit aparılmışdır.

Auditin nəticələrinə görə sifarişçiyə müstəqil auditorun hesabatı təhvil verilmişdir.

| Təhvil verdi: | Təhvil aldı: |
|---|---|
| İcraçı - | Sifarişçi- |
| Sərbəst auditor | "QARDAŞLAR MEBEL" |
| İ.Hacı-Əzizov | QSC-nin direktoru H.Mirzəyev |
| M.Y. | M.Y. |
| (imza) | (imza) |

"07" mart 2023-cü il

**Audit Məktub-Tapşırığı**

"QARDAŞLAR MEBEL" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyinə:

Siz cari ilin sonunda məndən "QARDAŞLAR MEBEL" Qapalı Səhmdar Cəmiyyətinin 31 dekabr 2022-ci il tarixinə təqdim edilən balans hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət və zərər hesabatı, kapitalda dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti hesabatından, eləcə də əsas uçot prinsiplərinin xülasəsindən və digər izahedici qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini keçirməyi xahiş etmişsiniz. Hazırkı məktub əsasında auditin keçirilməsinə razılıq verdiyimi və həmin tapşırığı qəbul etdiyimi bildirirəm. Audit maliyyə hesabatlarına dair rəyin bildirilməsi məqsədilə aparılacaqdır.

Audit prosesi Beynəlxalq Audit Standartlarına müvafiq aparılacaqdır. Standartlar audit prosesinin maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin olub-olmadığını müəyyən etmək üçün əsaslı təminat əldə etmək məqsədilə planlaşdırılmasını və icrasını tələb edir. Mənim audit işim test əsasında yoxlamadan, hesabları və maliyyə hesabatlarını təmin edən sübutların əldə edilməsindən ibarət olacaqdır. Eyni zamanda, auditə rəhbərlik tərəfindən istifadə edilən uçot qaydalarının, eləcə də, maliyyə hesabatlarının ümumi təqdimatının qiymətləndirilməsi daxildir.

Müəyyən mühasibat və daxili nəzarət sisteminin məhdudiyyətləri ilə birlikdə, auditin test mahiyyəti və bir sıra digər daxili məhdudiyyətlərinin olması səbəbi ilə, əhəmiyyətli təhriflərin aşkar edilməməsi üzrə qaçılmaz risk mövcuddur.

Maliyyə hesabatları üzrə hesabatıma əlavə olaraq, mühasibat uçotunda və daxili nəzarət sistemlərində diqqətimi cəlb edən əhəmiyyətli nöqsanlara dair sizi ayrıca məktubla təmin edəcəyəm.

Nəzərinizə çatdırım ki, tələblərə cavab verən maliyyə hesabatlarının hazırlanma cavabdehliyi cəmiyyətin rəhbərliyinin üzərinə düşür. Bura müvafiq mühasibat qeydlərinin saxlanması, uçot siyasətinin seçilməsi və tətbiqi və eləcə də, cəmiyyətin aktivlərinin qorunması daxildir. Audit prosesinin bir hissəsi olaraq, mən rəhbərlikdən auditlə bağlı edilmiş təqdimata dair yazılı razılıq tələb edəcəyəm.

Sizin işçi ştatınızla əməkdaşlıq etməyə hazıram və onların auditlə bağlı lazım olan bütün hesabatları, sənədləşmələri və sair məlumatı təmin edəcəklərinə inanıram. Ödəniş haqqı tərəflər arasında bağlanmış müqavilə əsasında müəyyən ediləcəkdir.

Hazırkı məktub ləğv edilməzsə, düzəlişlər aparılmazsa və ya başqası ilə əvəz edilməzsə gələcək illərdə etibarlı sayılır.

Maliyyə hesabatları auditinin təşkilinin sizin razılığınıza müvafiq olmasını təsdiq etmək üçün verilən məktuba əlavə edilən nüsxəni imzalamağınızı və geri qaytarmağınızı xahiş edirəm.

Sərbəst auditor
Hacı-Əzizov İlham İsfəndiyar oğlu

Sərbəst auditor
Independent Auditor

"QARDAŞLAR MEBEL" Qapalı Səhmdar Cəmiyyəti adından təsdiq edilmişdir

..........................

"QARDAŞLAR MEBEL" Qapalı Səhmdar Cəmiyyətinin direktoru Mirzəyev Hüseyn Məmməd oğlu

Tarix 28.02.2022

# RƏHBƏRLİYİN MƏLUMATLARI

Sərbəst auditor
İlham İsfəndiyar oğlu Hacı-Əzizova

07 mart 2023-cü il

Bu məktub maliyyə məlumatlarından ibarət maliyyə hesabatlarının, "QARDAŞLAR MEBEL" QSC-nin 31 dekabr 2022-ci il tarixinə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq təqdim edilən balans hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət və zərər hesabatı, kapitalda dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti hesabatından, eləcə də əsas uçot prinsiplərinin xülasəsindən və digər izahedici qeydlərdən ibarət olan maliyyə hesabatları barədə həqiqi və ədalətli rəy təmin edilməsi məqsədilə "QARDAŞLAR MEBEL" QSC-nin 31 dekabr 2022-ci il tarixinə apardığınız maliyyə hesabatlarının auditi ilə əlaqədar təqdim edilir.

Bununla, biz Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına müvafiq olaraq maliyyə hesabatlarının düzgün təqdim edilməsi üzrə məsuliyyətimizi təsdiq edirik.

Eyni zamanda, biz aşağıda verilən məlumatlara cəmiyyət ilə bağlı məlumatların daxil edildiyini təsdiq edirik.

- Rəhbərlik və ya cəmiyyətin daxili nəzarətində əhəmiyyətli rola malik əməkdaşların aidiyyəti olduğu və ya maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərə bilən qanunsuzluqlar baş verməmişdir.

- Bütün mühasibat kitablarını və əlaqədar sənədləri və eləcə də, cəhmdarların ümumi yığıncaqlarının bütün protokollarını sizə təqdim edirik.

- Maliyyə hesabatlarında səhvlər və o cümlədən, əhəmiyyətli səhvlər yoxdur.

- Cəmiyyət yerinə yetirməmə hallarında maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərə biləcək müqavilənin bütün aspektlərini yerinə yetirmişdir. Tələblərin yerinə yetirilməməsi hallarında maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərə biləcək tənzimləyici orqanların tələblərinin yerinə yetirilməməsi hallarına yol verilməmişdir.

- Maliyyə hesabatlarında əks olunan aktivlərin və passivlərin təsnifatı və ya dəyərini əhəmiyyətli dərəcədə dəyişə bilən planlarımız və ya niyyətimiz yoxdur.

- Hər hansı inventarın həddən artıq istifadəsi və ya köhnəlməsinə səbəb olan digər plan və ya niyyətimiz yoxdur və heç bir inventar xalis real dəyərindən artıq məbləğdə göstərilmir.

- Cəmiyyətin bütün aktivlərə hüququ vardır və Cəmiyyətin aktivləri üzərində həbs qoyma və ya girov hüququ yoxdur.

- Həm potensial, həm də faktiki olmaqla bütün öhdəliklər müvafiq qaydada qeydə alınmışdır.

- Maliyyə hesabatlarında dövrün sonunadək düzəlişlərin aparılmasını tələb edən heç bir sonrakı hadisə baş verməmişdir.

- Mülkü iddia üzrə heç bir iddia qəbul edilməmişdir və ya qəbul edilməsi ehtimal edilmir.

- Nağd pul və ya investisiya hesablarımızdan heç birində rəsmi və ya qeyri-rəsmi təzminat üzrə sazişlər yoxdur.

Azərbaycan Respublikası Qapalı Səhmdar Cəmiyyəti QARDAŞLAR MEBEL Closed Joint Stock Company Azerbaijan Republic

Cəmiyyətin direktoru H.M.Mirzəyev

Baş mühasib S.Ş.Bayramova

# “QARDAŞLAR MEBEL”
# Qapalı Səhmdar Cəmiyyəti

## 31 dekabr 2022-ci il tarixinə

## MALİYYƏ HESABATLARI VƏ MÜSTƏQİL AUDİTOR RƏYİ

| Mündəricat | Səhifə |
|---|---|


| | |
|---|---|
| Müstəqil Auditorun Rəyi | 1-2 |
| Balans Hesabatı | 3 |
| Mənfəət və Zərərlər Hesabatı | 4 |
| Kapitalda Dəyişikliklər Hesabatı | 5-6 |
| Pul Vəsaitlərinin Hərəkəti Hesabatı | 7-8 |
| Maliyyə Hesabatları üzrə Qeydlər | 9-21 |

**SƏRBƏST AUDİTOR** **İNDEPENDENT AUDİTOR**

Azərbaycan Respublikası, AZ 1063
Bakı şəhəri, Nizami küçəsi, 25/18
VÖEN : 1100075712
Audit İcazəsi SA № 258

25/18, Nizami Street
AZ 1063, Baku, Azerbaijan
Tax ID : 1100075712
Audit License İA №: 258

Phone : (+99450) 313 89 72
Phone : (+99455) 313 89 72
Phone : (+99412) 511 32 31
E-mail: ilham.auditor @ mail.ru

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**"QARDAŞLAR MEBEL" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyinə**

**Rəy**

1. Mən, "QARDAŞLAR MEBEL" QSC-nin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

2. Mən auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Fəaliyyətin fasiləsizliyinə dair əhəmiyyətli qeyri-müəyyənlik**

Mən diqqəti "QARDAŞLAR MEBEL" QSC-nin maliyyə hesabatlarına dair izahedici qeydlərində olan koronavirus infeksiyasının yayılması şəraitində və bunun iqtisadi nəticələri ilə bağlı Cəmiyyətin fəaliyyətinin davam etdirilməsinə dair qeyri-müəyyənlik faktorlarına yönəltmək istərdim. İzahedici qeydlərdə hazırki şəraitdə "QARDAŞLAR MEBEL" QSC-nin öz fəaliyyətinin fasiləsizliyini təmin etmək sahəsində əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması göstərilmişdir. Bu şəraitlə əlaqədar mən öz mülahizələrimə dəyişikliklər etməmişəm.

**Əsas audit məsələləri**

3. Əsas audit məsələləri mənim peşəkar mühakiməmə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və mən bu məsələlərə dair ayrılıqda rəy vermirəm.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

4. Rəhbərlik maliyyə hesabatlarının IFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyəti fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

5. Mənim məqsədim təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

**Sərbəst auditor**
**Hacı-Əzizov İlham İsfəndiyar oğlu**

Bakı şəhəri, Azərbaycan Respublikası
07 mart 2023-cü il

*"QARDAŞLAR MEBEL" Qapalı Səhmdar Cəmiyyəti*

# *Mühasibat balansı*

*31 Dekabr 2022-ci il tarixinə*

**(Azərbaycan manatı ilə)**

| Maddənin №-si | | Qeydlər | 2022 | 2021 |
|---|---|---|---|---|
| | **AKTİVLƏR** | | | |
| 1 | **Uzunmüddətli aktivlər** | | | |
| 10 | Qeyri-maddi aktivlər | 7 | 20471,78 | 22746,42 |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 6 | 785193,60 | 587782,02 |
| 12 | Daşınmaz əmlaka investisiyalar | | | |
| 13 | Bioloji aktivlər | | | |
| 14 | Təbii sərvətlər | | | |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | | |
| 16 | Təxirə salınmış vergi aktivləri | | | |
| 17 | Uzunmüddətli debitor borcları | | | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | | |
| 19 | Sair uzunmüddətli aktivlər | | | |
| | **Cəmi uzunmüddətli aktivlər** | | **805665,38** | **610528,44** |
| 2 | Qısamüddətli aktivlər | | | |
| 20 | Ehtiyatlar | 8 | 4426874,14 | 3371139,82 |
| 21 | Qısamüddətli debitor borcları | 9 | 936160,95 | 521655,85 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 10 | 444443,88 | 162174,66 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | | |
| 24 | Sair qısamüddətli aktivlər | | | |
| | **Cəmi qısamüddətli aktivlər** | | **5807478,97** | **4054970,33** |
| | **CƏMİ AKTİVLƏR** | | **6613144,35** | **4665498,77** |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| 3 | **Kapital** | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | 11 | 3050,00 | 3050,00 |
| 31 | Emissiya gəliri | | | |
| 32 | Geri alınmış kapital (səhmlər) | | | |
| 33 | Kapital ehtiyatları | | 4211693,09 | 3234767,99 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | 1905967,30 | 954917,66 |
| | **Cəmi kapital** | | **6120710,39** | **4192735,65** |
| 4 | **Uzunmüddətli öhdəliklər** | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | | |
| 43 | Uzunmüddətli kreditor borcları | | | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | | | |
| | **Cəmi uzunmüddətli öhdəliklər** | | **0** | **0** |
| 5 | **Qısamüddətli öhdəliklər** | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | | |
| 53 | Qısamüddətli kreditor borcları | 12 | 19670,84 | |
| 54 | Sair qısamüddətli öhdəliklər | 13 | 472763,12 | 472763,12 |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | **492433,96** | **472763,12** |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | **492433,96** | **472763,12** |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **6613144,35** | **4665498,77** |

RƏHBƏR

BAŞ MUHASİB

QARDAŞLAR MEBEL Closed Joint Stock Company Azerbaijan Republic

*"QARDAŞLAR MEBEL" Qapalı Səhmdar Cəmiyyəti*

## *Mənfəət və zərər haqqında hesabat (xərclərin funksiyalar üzrə)*

*31 Dekabr 2022-ci il tarixinə*

**(Azərbaycan manatı ilə)**

| Bölümün / maddənin №-si | | Qeydlərə istinad | 2022 | 2021 |
|---|---|---|---|---|
| 60 | Əsas əməliyyat gəliri | 14 | 11048173,15 | 6965429,27 |
| 70 | Satışın maya dəyəri | | | |
| | **Ümumi mənfəət** | | 11048173,15 | 6965429,27 |
| 61 | Sair əməliyyat gəlirləri | 15 | 115313,25 | 325482,31 |
| 71 | Kommersiya xərcləri | | | |
| 72 | İnzibati xərclər | | -2617084,44 | -2031684,62 |
| 73 | Sair əməliyyat xərcləri | | -7357589,91 | -5059603,82 |
| 62 və 74 | Fəaliyyətin dayandırılmasından mənfəətlər (zərərlər) | | | |
| | **Əməliyyat mənfəəti (zərəri)** | 16 | -9974674,35 | -7091288,44 |
| 63 və 75 | Maliyyə mənfəəti və zərəri | | | |
| 81 | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | | |
| | **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | 17 | 1188812,05 | 199623,14 |
| 90 | Mənfəət vergisi | 18 | -237762,41 | -39924,63 |
| | **Adi fəaliyyətdən mənfəət (zərər)** | | | |
| 64 və 76 | Fövqəladə mənfəət (zərər) | | | |
| 80 | Hesabat dövründə xalis mənfəət (zərər) | 19 | 951049,64 | 159698,51 |
| | Maddi yardım | | | |
| | Bazis hər bir səhmin mənfəəti | | | |
| | Qatılmış hər bir səhmin mənfəəti | | | |

### Xərclərin xüsusiyyətləri üzrə təsnifat əsasında əməliyyat xərcləri haqqında MƏLUMAT

| Bölümün / maddənin №-si | | Qeydlərə istinad | 2022 | 2021 |
|---|---|---|---|---|
| | Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı dəyişikdiklər | | | |
| | Müəssisə tərəfindən yerinə yetirilmiş və kapitallaşdırılmış işlər | | | |
| | İstifadə edilmiş material ehtiyatları | | | |
| | İşçi heyəti üzrə xərclər | | 2617084,44 | 2031684,62 |
| | Amortizasiya xərcləri | | 97073,89 | 65012,61 |
| 73 | **Sair əməliyyat xərcləri** | | 7260516,02 | 4994591,21 |
| | **Cəmi əməliyyat xərcləri** | 16 | 9974674,35 | 7091288,44 |

RƏHBƏR

BAŞ MUHASİB

QARDAŞLAR MEBEL Closed Joint Stock Company Azerbaijan Republic

# *Kapitalda Dəyişikliklər Haqqında hesabat*

*31 Dekabr 2022-ci il tarixinə*

**(Azərbaycan manatı ilə)**

| | Qeydlərə istinad | Ödənilmiş nizamnamə kapitalı | Emissiya gəliri | Geri alınmış kapital (səhmlər) | Kapital ehtiyatları | | | | | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | CƏMİ |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yenidən qiymətləndirmə üzrə ehtiyat | Məzənnə fərqləri üzrə ehtiyat | Qanunvericilik üzrə ehtiyat | Nizamnamə üzrə ehtiyat | Digər ehtiyatlar | | |
| **1/1/2021-ci il tarixinə qalıq** | 11 | 3050,00 | | | | | | | 2262150,05 | 689347,14 | 2954547,19 |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | | | 972617,94 | 105872,01 | 1078489,95 |
| **1/1/2021-ci il tarixinə düzəlişlərdən sonra qalıq** | | | | | | | | | | | |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | | | | | | | | | |
| Məzənnə fərqləri | | | | | | | | | | | |
| Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər | | | | | | | | | | | |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 19 | | | | | | | | | 159698,51 | 159698,51 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividentlər) | | | | | | | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | | | | |
| Kapitalın maddələr arasında köçürülmələrindən əvvəl 31/12/2021-ci il tarixinə qalıq | | | | | | | | | | | |
| Kapitalın maddələr arasında köçürülmələr | | | | | | | | | | | |
| **31/12/2021-ci il tarixinə qalıq** | 11 | 3050,00 | | | | | | | 3234767,99 | 954917,66 | 4192735,65 |
| **2021-ci il üzrə kapitalda dəyişikliklərin cəmi** | | | | | | | | | 972617,94 | 265570,52 | 1238188,46 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1/1/2022-ci il tarixinə qalıq** | | 3050,00 | | | | | | 3234767,99 | 954917,66 | 4192735,65 |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | | 976925,10 | | 976925,10 |
| **1/1/2022-ci il tarixinə düzəlişlərdən sonra qalıq** | | | | | | | | | | |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | | | | | | | | |
| Məzənnə fərqləri | | | | | | | | | | |
| Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər | | | | | | | | | | |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 19 | | | | | | | | 951049,64 | 951049,64 |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividentlər) | | | | | | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | | | |
| Kapitalın maddələr arasında köçürülmələrindən əvvəl 31/12/2022-ci il tarixinə qalıq | | | | | | | | | | |
| Kapitalın maddələr arasında köçürülmələr | | | | | | | | | | |
| **31/12/2022-ci il tarixinə qalıq** | 11 | 3050,00 | | | | | | 4211693,09 | 1905967,30 | 6120710,39 |
| **2022-ci il üzrə kapitalda dəyişikliklərin cəmi** | | | | | | | | 976925,10 | 951049,64 | 1927974,74 |

RƏHBƏR

BAŞ MUHASİB

Azərbaycan Respublikası Qapalı Səhmdar Cəmiyyəti QARDAŞLAR MEBEL Closed Joint Stock Company Azerbaijan Republic

**"QARDAŞLAR MEBEL" Qapalı Səhmdar Cəmiyyəti**

# Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

*31 Dekabr 2022-ci il tarixinə*

**(Azərbaycan manatı ilə)**

| | Qeydlərə istinad | 2022 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | 19 | 951049,64 |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | | |
| amortizasiya | | 97073,89 |
| qeyri-maddi aktivlər üzrə artıq tutulmuş amortizasiya ayırması qaytarılır | | |
| azlıq təşkil edən mülkiyyətçilərin payı | | |
| fövqəladə gəlirlər və xərclər | | |
| mənfəət vergisi üzrə xərclər | | |
| qeyri-pul maddələri üzrə gəlirlər və xərclər | | |
| investisiya fəaliyyəti və ya maliyyələşdirmə üzrə fəaliyyətə aid olan digər maddələr | | |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | |
| ehtiyatlar | | -1055734,32 |
| əməliyyat debitor borcları və gələcək dövrlərin xərcləri | | -414505,10 |
| əməliyyat kreditor borcları və hesablaşmalar | | 19670,84 |
| digər aktivlərin azalması (artması) | | |
| digər öhdəliklzrin (azalması) artması | | |
| Əməliyyat fəaliyyətinə aid fövqəladə pul vəsaitlərinin hərəkəti | | 976925,10 |
| Ödənilmiş (qaytarılmış) mənfəət vergisi | | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **574480,05** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | |
| Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də, uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları | | -292210,83 |
| Uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | | |
| Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların əldə olunması ilə bağlı pul vəsaitlərinin daxilolmaları | | |
| Törəmə, asılı və birgə müəssisələrdə investisiyaların satışından yaranan pul vəsaitlərinin daxilolmaları | | |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin xaricolmaları | | |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borcların geri qaytarılmasından yaranan pul vəsaitlərinin daxilolmaları | | |
| Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | |
| Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | | |
| Fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin xaricolmaları | | |
| Fyuçers, forvard, opsion və svop müqavilələrindən yaranan pul vəsaitlərinin daxilolmaları | | |

| | | |
|---|---|---|
| Dividentlərin və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları | | |
| Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları | | |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **-292210,83** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | |
| Səhmlərin və digər oxşar alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | |
| Müəssisənin öz səhmlərinin və digər oxşar alətlərinin geri alınması məqsədilə pul vəsaitlərinin xaricolmaları | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | |
| Məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | | |
| Məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | |
| Maliyyə icarəsi müqavilələrinin şərtlərin ə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları | | |
| Dividentlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | |
| Faizlər şəklində rul vəsaitlərinin xaricolmaları | | |
| Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar fövqəladə xaricolmalar və daxilolmalar | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin xalis hərəkəti** | | |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | 282269,22 |

## Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti

| | **2022** |
|---|---|
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | 162174,66 |
| İl ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | 282269,22 |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | 444443,88 |

RƏHBƏR

BAŞ MUHASİB

# Maliyyə hesabatlarına şərhlər və qeydlər.

## 1. Giriş

Hazırkı maliyyə hesabatları 31 dekabr 2022-ci ildə tamamlanan il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq ***"QARDAŞLAR MEBEL" Qapalı Səhmdar Cəmiyyəti*** üçün tərtib edilmişdir. Cəmiyyət Azərbaycan Respublikasında təsis edilmişdir və bu ölkədə fəaliyyət göstərir. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış səhmdar cəmiyyətdir.

### Fəaliyyətin fasiləsizliyinə dair əhəmiyyətli qeyri-müəyyənlik

Koronavirus infeksiyasının yayılması şəraitində və bunun iqtisadi nəticələri ilə bağlı Cəmiyyətin fəaliyyətinin davam etdirilməsinə dair qeyri-müəyyənlik faktorları mövcuddur. Cəmiyyətin öz fəaliyyətinin fasiləsizliyini təmin etmək sahəsində əhəmiyyətli qeyri-müəyyənlik mövcudur .

### 1.1. Cəmiyyət haqqında ümumi məlumat.

***"QARDAŞLAR MEBEL-3" Məhdud Məsuliyyətli Cəmiyyətinin*** təsisçisi Mirzəyev Əli Məmməd oğlunun 01.08.2021-ci il tarixli Qərarına əsasən "QARDAŞLAR MEBEL-3" MMC-nin adı və təşkilati hüquqi forması dəyişdirilərək Qapalı Səhmdar Cəmiyyətinə çevrilmiş və bu dəyişikliklə əlaqədar Nizamnaməsini təsdiq etdirmişdir.
***"QARDAŞLAR MEBEL" Qapalı Səhmdar Cəmiyyətinin*** Nizamnaməsi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən 13.08.2021-ci il tarixdə 1003718621 saylı nömrə ilə növbəti dəfə dəyişikliklə əlaqədar qeydiyyata alınmışdır.
Cəmiyyət 20.02.2015-ci il tarixdə Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kommersiya Hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən qeydiyyatdan keçərək Kommersiya Hüquqi şəxsinin dövlət qeydiyyatı haqqında 1003718621 saylı VÖEN Şəhadətnamə almışdır. Cəmiyyət 13.08.2021-ci il tarixdə adının dəyişdirilməsi ilə əlaqədar 1003718621 saylı yeni VÖEN Şəhadətnamə almışdır.
Cəmiyyət İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət qeydiyyatı idarəsi tərəfindən növbəti dəfə 13.08.2021-ci il tarixdə qeydiyyatdan keçərək növbəti dəfə Dövlət Reyestrindən çıxarış almışdır.

***"QARDAŞLAR MEBEL" Qapalı Səhmdar Cəmiyyəti*** öz Nizamnaməsinə uyğun olaraq Azərbaycan Respublikası qanunvericiliyi ilə qadağan olunmayan bütün fəaliyyət növləri ilə, o cümlədən xüsusi icazə alınmasını tələb edən müəyyən fəaliyyət növləri ilə yalnız müvafiq icazəni (lisenziyanı) aldıqdan sonra məşğul ola bilər.
Hesabat dövrü ərzində Cəmiyyət əsasən mebellərin istehsalı və satışı fəaliyyəti ilə məşğul olmuşdur.

31 dekabr 2022-ci il tarixə və 31 dekabr 2021-ci il tarixə Cəmiyyətin işçilərinin sayı müvafiq olaraq *350 və 235 nəfər olmuşdur.*

***Cəmiyyətin səhmdarı fiziki şəxs Mirzəyev Əli Məmməd oğludur - 100%. Cəmiyyətin nizamnamə kapitalı 3050 (üç min əlli) manat həcmində olmaqla hər birinin nominal dəyəri 1525 (bir min beş yüz iyirmi beş) manat olmaqla 2 (iki) ədəd adi adlı səhmdən ibarətdir.***

Menecment və nəzarət Cəmiyyətin direktoru cənab Hüseyn Məmməd oğlu Mirzəyev tərəfindən aparılır və Cəmiyyətin səhmdarlarına hesabat verir.

### 1.2. Cəmiyyətin hüquqi ünvanı

*"QARDAŞLAR MEBEL" Qapalı Səhmdar Cəmiyyətinin hüquqi ünvanı:*
*Azərbaycan Respublikası, Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri ŞTQ, Yeni yaşayış massivi 2, ev 37-*

*dir.*

### 1.3. Əməliyyat valyutası

Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan manatı (AZN) ilə ifadə olunmuşdur.

## 2. Cəmiyyətin əməliyyat mühiti

Azərbaycan Respublikası inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas olan xüsusiyyətlərə malikdir. Son illər ölkədə güclü iqtisadi artım müşahidə olunmuşdur. Lakin hal-hazırda dünya iqtisadiyyatında mövcud olan qlobal maliyyə böhranı Azərbaycana da öz təsirini göstərməkdədir. Kommersiya sektoruna təsir göstərə biləcək bütün tendensiyaları, eləcə də onların Cəmiyyətin maliyyə vəziyyətinə təsirini (əgər varsa) qabaqcadan proqnozlaşdırmaq mümkün deyil.

Azərbaycan Respublikasının vergi, sosial sığorta, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Azərbaycan Respublikasında iqtisadi inkişafın gələcək perspektivləri hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və pul islahatlarının səmərəliliyindən, eləcə də vergi, sosial sığorta, hüquq, normativ və siyasi sistemin inkişafından xeyli dərəcədə asılıdır.

## 3. Uçot siyasətinin təqdimatı

Uçot siyasətinin bu maliyyə hesabatlarının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir. Əgər başqa açıqlamalarda istinad qeydləri edilməmişdirsə, göstərilən uçot siyasəti müddəaları təqdim edilən bütün hesabat dövrlərində ardıcıl tətbiq edilmişdir.

### 3.1. Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları

"QARDAŞLAR MEBEL" QSC mühasibat uçotunu Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada aparır. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu haqqında qanunvericilik aktları əsasında hazırlanmış və MHBS-na uyğunlaşdırılmışdır. Bu düzəlişlərə əsas əməliyyatların iqtisadi mahiyyətini əks etdirən yenidən təsnifləşdirmələr, o cümlədən bəzi aktiv və öhdəliklərin yenidən təsnifləşdirilməsi daxildir. Bu maliyyə hesabatlarında, aktivlər və öhdəliklər faktiki xərclər üzrə qiymətləndirilmişdir.

Maliyyə hesabatlarının MHBS-na uyğun tərtib edilməsi nəzərdə tutur ki, rəhbərlik əsas qiymət göstəricilərini müəyyənləşdirir. Rəhbərlikdən həmçinin tələb edilir ki, Cəmiyyətin uçot siyasətinin həyata keçirilməsi sahəsində peşəkar mülahizələri açıqlasın.

### 3.2. Valyutaların yenidən hesablanması

*(a) Funksional valyuta və hesabat valyutası*
Funksional valyuta maliyyə hesabatlarında maddələrin ölçülməsi üçün istifadə olunur. Bu Cəmiyyətin yerli valyutası olan Azərbaycan manatıdır (AZN).

*(b) Əməliyyatlar və qalıqlar*
Xarici valyuta ilə aparılan əməliyyatlar onların aparılma tarixinə valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir. Məzənnə fərqləri funksional valyutalardan fərqli valyutalarda aparılan əməliyyatlar və sövdələşmələr üzrə yaranır və hər bir valyutanın müəyyən sayda vahidlərinin müxtəlif məzənnə kursunda digər valyutaya çevrilməsi nəticəsində yaranan fərq kimi müəyyən edilir. Xarici valyutada aparılan əməliyyatlar üzrə yaranan mənfəət və zərərlər, həmçinin xarici valyutada ifadə edilən monetar aktivlərin və öhdəliklərin hesabat dövrünün sonuna məzənnə kursu üzrə yenidən hesablanmasından yaranan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir. Bu cür əməliyyatlardan yaranan məzənnə fərqləri müvəqqəti olaraq pul vəsaitlərinin və netto-investisiyaların hedcinqləşdirilməsi

(aktivlər və öhdəliklərin dəyərinin dəyişməsindən yaranan itkilərdən sığortalanmaq üçün həyata keçirilən əməliyyatlar) kapital hesabına aid edilmişdirsə, məzənnə fərqləri mənfəət və zərərlər haqqında hesabatda əks etdirilmir.

Monetar maddələr mövcud valyuta vahidləri və valyuta vahidlərinin sabit və ya müəyyən olunan sayında əldə edilən və ya ödənilən aktivlər və öhdəliklərdir. Monetar maddələrin əsas xüsusiyyəti sabit və ya müəyyən olunan sayda valyuta vahidlərinin əldə edilməsi hüququdur. Monetar maddələr nəğd, əldə edilən vəsaitləri, sudaları, ödənilməli olan məbləğləri, uzunmüddətli borcları, təminatları, işçi müavinətləri öhdəliklərini və təxirə salınmış vergi aktivləri və öhdəliklərini daxil edir.

Qeyri-monetar maddələrə səhmlər, ehtiyatlar, əvvəlcədən ödənilmiş gələcək dövrün xərcləri, əmlak, torpaq, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər daxil edilir.

**3.3. Binalar və avadanlıqlar (Əsas vəsaitlər)**

Əsas vəsaitlər elə maddi aktivlərdir ki:
(a) Mal və xidmətlərin istehsalı və təchizatında istismar edilir, gələcəkdə icarəyə verilmək və ya inzibati məqsədlər üçün istifadə edilir;
(b) Bir dövrdən artıq dövr ərzində istifadə edilməsi gözlənilir.

Torpaq və binalara əsasən inzibati bina və ofis sahələri daxildir. Hesabat dövrünün sonuna torpaq və binalar bazar qiymətlərinə müvafiq surətdə ədalətli dəyər üzrə yenudən qiymətləndirilməmişdir.

Ədalətli dəyər – yaxşı məlumatlandırılmış, razılığa gəlmiş və bir-birindən asılı olmayan tərəflər arasında ticari sövdələşmələrdə aktivin mübadilə edildiyi dəyərdir. Binalar üzrə ədalətli dəyər müstəqil kənar qiymətləndirici tərəfindən vaxtaşırı keçirilən (adətən üç ildən bir dəfədən az olmayaraq) qiymətləndirmə ilə müəyyənləşdirilir (amortizasiya ayırmaları çıxılmaqla). Yenidənqiymətləndirmə tarixinə yığılmış istənilən amortizasiya məbləği aktivin balans dəyərindən silinir və xalis dəyər yenidənqiymətləndirmə dəyərinə hesablanır. Qalan bütün əsas vəsaitlər ilkin dəyərlə amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir.

İlkin dəyər bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərcləri nəzərdə tutur. İlkin dəyərə həmçinin valyuta ilə alınmış əsas vəsaitlərin hedcinqi üzrə kapitala keçirilən pul vəsaitlərinin axını üzrə mənfəət və zərərlər də daxil edilir.

Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr Cəmiyyətə keçsin və düzgün qiymətləndirilə bilinsin. Qalan dütün cari təmir və istismar xəclәri o dövrün mənfəət və zərərlər haqqında hesabatında əks etdirilir ki, həmin dövrdə bu xərclər çəkilmişdir.

Torpaq və binaların yenidənqiymətləndirilməsi üzrə balans dəyərinin artması kapitalın tərkibində sair ehtiyatlar (rezervlər) hesabına aid edilir. Balans dəyərinin həmin aktiv üzrə əvvəlki yenidənqiymətləndirmə artımı həddləri daxilində azalması birbaşa kapitalın tərkibində ədalətli dəyər üzrə ehtiyatlar (rezervlər) hesabına aid edilir; balans dəyərinin qalan bütün azalmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

Hər il aktivin yenidənqiymətləndirilmiş balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları (amortizasiya ayırmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir) və aktivin ilkin balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları arasındakı fərq, ədalətli dəyər üzrə ehtiyat (rezerv) hesabından "Bölüşdürülməmiş mənfəət" hesabına keçirilir.

**3.4. Amortizasiya**

Torpaq üzrə amortizasiya ayırmaları hesablanmır.

Digər əsas vəsaitlər üzrə amortizasiya azalan qalıq dəyəri metoduna, yəni əsas vəsaitlərin faydalı istismar

müddəti ərzində aşağıdakı illik amortizasiya dərəcələrini tətbiq etməklə, aktivlərin qalıq dəyərinə və ya yenidənqiymətləndirilmiş dəyərinə vurmaqla həyata keçirilir. Faydalı istismar müddəti və ya illik amortizasiya dərəcələri aşağıdakı qaydada müəyyən edilir:

- Binalar – 40 il və ya illik 7%
- Maşın və avadanlıqlar – 5 il və ya illik 25%
- İT avadanlıqları – 5 il və ya illik 25%
- Nəqliyyat vasitələri – 5 il və ya illik 25%
- Mebel və təsərrüfat inventarları – 5 il və ya illik 20%
- Sair əsas vəsaitlər – 5 il və ya illik 20%

Aktivlərin ləğvedilmə dəyərinə və onların faydalı istismar müddətinə vaxtaşırı yenidən baxılır və zərurət olduqda, hər bir hesabat dövrünə təshih edilir.

Əsas vəsaitlərin xaricolmasından mənfəət və zərərlər bu əsas vəsaitlərin satışı ilə onların balans dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir. Xaricolmalardan mənfəət və zərərlər mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

### 3.5. Qeyri-maddi aktivlər

Cəmiyyətin qeyri-maddi aktivi 1 C mühasibat proqramından və LOGİX satış proqramından ibarətdir.

### 3.6. Aktivlərin qiymətdən düşməsi

Faydalı istismar müddəti müəyyən edilə bilinməyən aktivlər amortizasiya olunmur və hər il qiymətdən düşmə məqsədləri üçün testləşdirmə aparılır. Amortizasiya olunan aktivlər, əgər hər hansı bir hadisə və ya şəraitin dəyişməsi balans dəyərinin bu aktivlərin əvəzinin ödənilmə dəyərinin olmamasını göstərirsə, hər dəfə qiymətdən düşmə məqsədləri üçün qiymətləndirilir. Qiymətdən düşmə zərəri aktivin balans dəyərinin onun əvəzinin ödənilmə dəyərindən artıq olan məbləğində tanınır. Əvəzinin ödənilməsi dəyəri aşağıdakı iki meyarlardan daha böyük olan məbləğlərdən biridir:

(a) Aktivlərin satışı üzrə xərclər çıxılmaqla ədalətli dəyər;

(b) Istifadə edilmə dəyəri.

Aktivlərin qiymətdən düşməsi məqsədləri üçün aktivlər pul axınlarını eyniləşdirən qruplaşdırma qaydasında ən kiçik qruplara bölünürlər.

### 3.7. İnvestisiyalar

Cəmiyyət özünün investisiyalarını aşağıdakı şəkildə təsnifləşdirir:

- Ədalətli dəyərin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri;
- Borc vəsaitləri və debitor borcları,
- İnvestisiyalar;
- Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri.

Təsnifləşdirmə investisiyaların hansı məqsədlə alınmasından asılıdır. Rəhbərlik investisiyaların təsnifləşdirilməsini onların ilkin tanınması zamanı müəyyən edir və hər bir hesabat tarixinə onları yenidən nəzərdən keçirir.

*(a) Ədalətli dəyərin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri*

Bu kateqoriya iki alt kateqoriyaya bölünür: ticarət üçün nəzərdə tutulmuş maliyyə aktivləri və ilkin tanınmış ədalətli dəyərin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri. Maliyyə aktivləri bu kateqoriyaya o zaman aid edilir ki, onlar yaxın gələcəkdə satış üçün nəzərdə tutulmuşdur və onlar rəhbərlik tərəfindən belə ifadə edilmişdir. Törəmə maliyyə alətləri də həmçinin satış üçün nəzərdə tutulmuş hesab edilirlər ki, onlar hedcinqləşdirmə alətləri deyildirlər. Əgər bu aktivlər satış üçün nəzərdə

tutulmuşlarsa və ya onların satılması balans hesabatı tarixindən bir ildən artıq olmayan müddətdə nəzərdə tutulmuşdursa, bu kateqoriyanın aktivləri qısamüddətli aktivlər kimi təsnifləşdirilirlər.

(b) *Borc vəsaitləri və debitor borcları*

Borc vəsaitləri və debitor borcları təsbit edilmiş və ya müəyyən edilə bilən ödəmə müddəti olan və aktiv bazarda qiyməti təyin edilməyən (kotirovka olunmayan) qeyri-törəmə maliyyə aktivləridir. Onlar o vaxt yaranırlar ki, Cəmiyyət debitor borclarının satılması niyyəti olmadan pul vəsaitlərini, malları və xidmətləri birbaşa debitora təqdim edir. Belə borc vəsaitləri və debitor borcları dövriyyə aktivləri kimi təsnifləşdirilirlər və qısamüddətli aktivlərə aid edilirlər (əgər ödəmə müdəti mühasibat balansının tərtib edilmə tarixindən bir ilədək müddətdən artıq deyildirsə). Borc vəsaitləri və debitor borcları mühasibat balansında "Debitor borcları" maddəsinin tərkibində əks etdirilmişlər.

(c) *Ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar*

Ödəmə müdətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar təsbit edilmiş ödəmə müddəti olan elə qeyri-törəmə maliyyə aktivləridir ki, onlarla münasibətdə ödəniş müddətinin çatmasına qədər Cəmiyyətin onları saxlamağa qəti niyyəti və imkanı vardır. Hesabat dövründə Cəmiyyətin bu kateqoriya üzrə heç bir investisiyası olmamışdır.

(d) *Satış üçün nəzərdə tutulmuş maiyyə aktivləri*

Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri bu kateqoriyada nəzərdə tutulmamış və ya digər kateqoriyalarda təsnifləşdirilməmiş qeyri-törəmə maliyyə alətləridir. Əgər rəhbərliyin bu aktivləri mühasibat balansının tətib edilmə tarixindən bir ilədək müddətə satmaq niyyəti yoxdursa, onlar qeyri-dövriyyə aktivlərinə aid edilirlər və uzunmüddətli aktivlərin tərkibində əks etdirilirlər.

### 3.8. Ehtiyatlar

Ehtiyatlar faktiki maya dəyəri ilə əks etdirilir. Ehtiyatların maya dəyəri birinci satınalmaların qiyməti üzrə (FİFO metodu) hesablanır. Maya dəyərinə material xərcləri, istehsal işçilərinin əmək haqqı xərcləri, sair birbaşa xərclər, həmçinin inzibati xərclərin müvafiq hissəsi daxil edilir. Ehtiyatların dəyərinə, bu xammal və material ehtiyatlarının əldə edilməsi ilə bağlı olan və müvafiq pul axınının hedcinqləşdirilməsi alətləri üzrə mənfəət və zərərlər hesabından keçirilmiş zərərlər daxil edilir.

### 3.9. Alıcılar və sifarişçilərin debitor borcları

Alıcılar və sifarişçilərlə hesablaşmalar ilkin olaraq ədalətli dəyər üzrə əks etdirilir. Sonradan isə qiymətdən düşmə ehtiyatlarının (rezervlərinin) yaradılması metodu ilə amortizasiya olunmuş dəyər ilə uçota alınır. Alıcılar və sifarişçilərin debitor borcları üzrə qiymətdən düşmə ehtiyatları (rezervləri) o halda yaradılır ki, elə obyektiv sübutlar mövcuddur ki, Cəmiyyət tərəfindən ilkin maliyyələşmə nəticəsində yaranmış bütün debitor borclarının yığılması mümkün deyildir və ya bütün debitor borclarının ödənilməsi mümkünsüzdür. Ehtiyatların (rezervlərin) məbləği aktivin balans dəyəri ilə pul vəsaitləri axınının effektiv faiz dərəcəsi nəzərə alınan fərz edilən diskontlaşdırılmış dəyər arasındakı fərqdir. Ehtiyatların (rezervlərin) yaradılması və ya dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

### 3.10. Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nəğd pul məbləğinə çevrilə bilən və dəyəri cuzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nəğd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank hesabları, pul vəsaitlərinin ekvivalentləri, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksək likvidli investisiyalar əks etdirilir. Mühasibat balansında bank overdraftları qısamüddətli öhdəliklərin tərkibində qısamüddətli faiz xərcləri yaradan öhdəliklər maddəsi üzrə əks etdirilir.

### 3.11. Səhmdar kapital

Adi səhmlər kapital kimi təsnifləşdirilir.

### 3.12. Kreditlər bə borclar

Kreditlər və borclar ilkin olaraq sövdələşmənin aparılmasına çəkilən xərclər çıxılmaqla, ədalətli dəyər üzrə tanınır.

Konvertasiya olunan istiqrazların öhdəliklərə aid olan hissəsinin ədalətli dəyəri konvertasiya olunmayan istiqazlara ekvivalent bazar faiz dərəcəsi tətbiq edilməklə müəyyən olunur. Bu məbləğ konvertasiyada ləğv olunma müddətinə və istiqrazların ödənmə müddətinin çatması müddətinə qədər amortizasiya olunan öhdəliyin dəyəri kimi əks etdirilir. Alınmış qalan vəsaitlər konvertasiyaya opsion kimi mənfəət vergisi effekti çıxılmaqla kapitala əlavə edilir.

Kreditlər və borclar, Cəmiyyət tərəfindən bu öhdəliklərin ödənilmə müddətinin mühasibat balansının tərtib edilmə müddətinədək ən azı bir ildən artıq olan müddətə ödəniləcəyi barədə şərtsiz hüququ olaması halları istisna olmaqla, qısamüddətli öhdəliklər kimi təsnifləşdirilir.

### 3.13. Mənfəət vergisi

Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında balans tarixinə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirəsalınmış mənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır. Lakin, həmin və ya başqa dövrdə bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınır.

Cari mənfəət vergisi, cari və ya əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq (əvəzləşdiriləcək) məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər, maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim edilməsindən əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi üzrə ehtiyat (rezerv) öhdəliklər metodu istifdə edilməklə tam həcmdə yaradılır. Təxirə salınmış mənfəət vergisi, aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan bütün zaman fərqləri üzrə müəyyən edilir. Lakin, təxirə salınmış mənfəət vergisi, aktivlərin və ya öhdəliklərin ilkin tanınması zamanı meydana çıxırsa, o halda təxirə salınmış mənfəət vergisi uçotda əks etdirilmir (əgər, sövdələşmənin həyata keçirildiyi anda nə mühasibat mənfəətinə, nə də vergiyə cəlb edilən mənfəətə təsir etməyən biznesin birləşdirilməsi ilə əlaqədar deyildirsə). Təxirə salınmış mənfəət vergisi mühasibat balansının tərtib edilmə tarixinə qüvvədə olan Azərbaycan Respunlikasının Vergi Məcəlləsində müəyyən edilmiş vergi dərəcələrinə müvafiq olaraq hesablanır.

Təxirə salınmış vergi aktivləri o zaman tanınır ki, gələcəkdə zaman fərqləri məbləğində azaldıla biləcək vergiyə cəlb ediləsi mənfəət əldə edilməsi ehtimalı vardır.

### 3.14. Qarşıdakı xərclər və ödənişlər üzrə ehtiyatlar (rezervlər)

Ətraf mühitin bərpa olunmasına, restrukturizasiyaya və məhkəmə çəkişmələrinə ehtiyatlar (rezervlər) o zaman yaradılır ki:

- Cəmiyyət keşmiş dövrlərdə baş vermiş hadisələr nəticəsində hər hansı hüquqi öhdəliklər daşıyır və ya könüllü surətdə öz üzərinə ənənəvi öhdəliklər qəbul etmişdir;
- Ehtimallar vardır ki, bu öhdəliklərin səhmana salınması üçün pul vəsaitlərinin axını labüddür;
- Bu öhdəliklərin məbləği etibarlı surətdə hesablana bilir.

Restrukturizasiya xərcləri üzrə ehtiyatlara icarə müqavilələrinin vaxtından əvvəl ləğv edilməsinə görə cərimə sanksiyaları və işçilərə ödənilən işdən çıxma müavinətləri daxildir. Gələcək dövrlərin əməliyyat zərərləri üzrə ehtiyatlar yaradılmır.

### 3.15. Gəlirin tanınması

Gəlir satılmış mal, iş və xidmətlərin ədalətli dəyəri ilə (əlavə dəyər vergisi çıxılmaqla) tanınır. Satışdan gəlir aşağıdakı qaydada tanınır:

*(a) Xidmətlərin göstərilməsindən gəlirlər*

Xidmətlərin göstərilməsindən gəlirlər o hesabat dövrünə aid edilir ki, bu xidmətlər göstərilmişdir və xidmət göstərilməsi üzrə konkret sövdələşmənin tələbləri başa çatdırılmışdır. Konkret sövdələşmənin tələblərinin başa çatdırılması dərəcəsi faktiki göstərilmiş xidmətlərin həcminin sövdələşmə üzrə göstəriləcək xidmətlərin ümumi həcmindəki payı kimi qiymətləndirilir.

*(b) Faiz gəlirləri*

Faiz gəlirləri faktiki əldə edildiyi dövrdə gəlir kimi tanınır.

*(c) Dividend gəlirləri*

Dividend gəlirləri o zaman tanınır ki, səhmdarların mənfəət əldə etmək hüququ müəyyən olunmuşdur.

### 3.16. İcarə

Mülkiyyət hüququndan irəli gələn risklərin və səmərələrin əhəmiyyətli hissəsinin icarəyə verəndə qalması hallarındakı icarə, əməliyyat icarəsi kimi təsnifləşdirilir. Əməliyyat icarəsi müqaviləsi üzrə ödənişlər bütün icarə müddəti üzrə bərabər hissələrə bölünməklə, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

### 3.17. Dividendlərin verilməsi

Cəmiyyətin səhmdarlarına dividendlər maliyyə hesabatlarında öhdəlik kimi o dövrdə tanınır ki, həmin dövrdə Cəmiyyətin səhmdarları tərəfindən təsdiq edilmişdir (qərar qəbul edilmişdir).

Hesabat dövründə Cəmiyyətin səhmdarlarına dividendlər elan edilməmiş və ödənilməmişdir.

## 4. Maliyyə risklərinin idarə edilməsi

### 4.1. Maliyyə riskərinin faktorları

Cəmiyyətin fəaliyyəti bir sıra maliyyə risklərinə meyillidir: bazar riski (valyuta riskləri, faiz dərəcələrinin dəyişməsinin ədalətli dəyərə təsir riski və qiymət riski daxil olmaqla); kredit riski; likvidlik riski və faiz dərəcələrinin dəyişməsinin pul vəsaitləri axınına təsiri riski. Cəmiyyətin risklərin idarə olunması üzrə proqramı, maliyyə risklərinin qabaqcadan müəyyən edilə bilinməməsi amilinə cəmləşdirilmişdir (fokusuna yığılmışdır) və Cəmiyyətin fəaliyyətinin maliyyə nəticələrinə potensial əlverişsiz təsirinin minimallaşdırılmasına yönəldilmişdir. Cəmiyyət müəyyən risklərin hedcinqləşdirilməsi üçün törəmə maliyyə alətlərindən istifadə edir.

*(a) Bazar riski*

(i) Valyuta riski

Cəmiyyət beynəlxalq iqtisadi əlaqələrə malikdir və ona görə də, xarici valyuta kurslarının (əsasən, ABŞ dolları, avro, Rus rublu və s.) dəyişməsindən valyuta risklərinə meyillidir. Gələcək kommersiya sövdələşmələri, tanınmış aktivlər və öhdəliklər, həmçinin xarici şirkətlərə netto-investisiyalara münasibətdə mübadilə kurslarının dəyişməsi riski mövcuddur.

(ii) Qiymət riski

Cəmiyyət göstərdiyi xidmətlər üzrə qiymət riskinə mübtəla deyildir. Analoji xidmətlər bazarında faktiki rəqabətin olmaması buna əsas verir.

*(b) Kredit riski*

Cəmiyyət əhəmiyyətli kredit risklərinə mübtəla deyildir. Törəmə alətlərlə sövdələşmələr və pul əməliyyatları yalnız yüksək ödəmə qabiliyyəti olan maliyyə institutları ilə aparılır. Cəmiyyət tərəfindən heç bir istisnaya yol vermədən bütün maliyyə institutları üçün kredit riskini məhdudlaşdıran prosedurlar işlənmişdir.

*(c) Likvidlik riski*

Likvidlik riskinin ehtiyatlıqla idarə edilməsi pul vəsaitləri və dövriyyədə olan qiymətli kağızların kifayət qədər həcminin saxlanmasını, açılmış kredit xəttləri vasitəsilə adekvat maliyyələşmə imkanlarını və ortaya çıxa biləcək disbalans hallarında operativ idarərtmə imkanlarını nəzərdə tutur.

*(d) Faiz dərəcəsinin dəyişməsinin pul vəsaitləri axınına və ədalətli dəyərə təsiri riski*

Cəmiyyət faiz gəliri gətirən əhəmiyyətli məbləğdə aktivlərə malik olduğundan, mənfəət və pul vəsaitlərinin əməliyyat axınları, əsasən bazar faiz dərəcələrinin dəyişməsindən asılıdır.

**4.2. Törəmə maliyyə alətləri və hedcinq əməliyyatlrı**

Törəmə maliyyə alətləri müvafiq sövdələşmələrin (kontraktların) bağlanma tarixinə ilkin balans dəyəri ilə uçota alınır: sonradan ədalətli dəyərə yenidən qiymətləndirmə tələb edilir. Bu qaydada müəyyən edilmiş gəlirlər və zərərlər maliyyə alətlərinin hedcinq aləti kimi təsnifləşdirilməsindən asılıdır.

*(a) Ədalətli dəyərin hedcinqləşdirilməsi*

Cəmiyyət tərəfindən pul vəsaitləri axınının hedcinqləşdirilməsi aləti kimi təsnifləşdirilən törəmə alətlərin ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda hedcinqləşmə riskinə aid olan hedcinqləşdirilən maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyərinin dəyişməsi ilə birliklə əks etdirilir.

*(b) Pul vəsaitləri axınının hedcinqləşdirilməsi*

Cəmiyyət tərəfindən pul vəsaitləri axınının hedcinqləşdirilməsi aləti kimi təsnifləşdirilən törəmə alətlərin ədalətli dəyərinin dəyişməsinin effektiv hissəsi kapitalın tərkibində tanınır (bu dəyişmənin effektiv olmayan hissəsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir).

*(c) Xüsusi hedcinqləşdirmə əməliyyatı uçotu tətbiq edilməyən törəmə alətlər*

Bir sıra maliyyə alətləri xüsusi hedcinqləşdirmə əməliyyatı uçotu qaydalarına aid edilmir. Hedcinqləşdirmə əməliyyataları tətbiq edilməyən maliyyə alətlərinin ədalətli dəyərinin dəyişməsi birbaşa mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

## 5. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli mühasibat təxminləri və fərziyyələri

Cəmiyət növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və fərziyyələr irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

### 5.1. Müştəri debitor borclarının dəyərsizləşməsi üzrə zərərlər

Gələcək pul vəsaitləri hərəkətinin məbləğini və müddətini təxmin edərkən istifadə edilən metodologiya və mülahizələr, təxmini və həqiqi zərərlər arasındakı hər hansı fərqi azaltmaq məqsədilə müntəzəm olaraq nəzərdən keçirilir.

### 5.2. Binaların yenidən qiymətləndirilməsi

Cəmiyyətin balansında olan əmlak üçün yenidən qiymətləndirilmə aparılmamışdır.

### 5.3. Vergi qanunvericiliyi

Azərbaycan Respublikasının vergi, sosial sığorta, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə məruz qalır.

## 6. Əsas vəsaitlər

| | Binalar | Maşın və avadanlıq | Nəqliyyat vasitələri | Digər əsas vəsaitlər | Cəmi |
|---|---|---|---|---|---|
| 01 yanvar 2021-ci il tarixinə ilkin dəyər | | 475161,48 | 220100,00 | | 695261,48 |
| Yığılmış amortizasiya | | -241163,30 | -95567,13 | | -336730,43 |
| 01 yanvar 2021-ci il tarixinə balans dəyəri | | 233998,18 | 124532,87 | | 358531,05 |
| Daxilolmalar | | 261296,20 | 30440,00 | | 291736,20 |
| Xaricolmalar | | | | | |
| Amortizasiya ayırmaları | | -47238,82 | -15246,41 | | -62485,23 |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | | | | | |
| 31 dekabr 2021-ci il tarixinə balans dəyəri | | 448055,56 | 139726,46 | | 587782,02 |
| 31 dekabr 2021-ci il tarixinə ilkin dəyər | | 736457,68 | 250540,00 | | 986997,68 |
| Yığılmış amortizasiya | | -288402,12 | -110813,54 | | -399215,66 |
| 31 dekabr 2021-ci il tarixinə balans dəyəri | | 448055,56 | 139726,46 | | 587782,02 |
| 01 yanvar 2022-ci il tarixinə ilkin dəyər | | 736457,68 | 250540,00 | | 986997,68 |
| Yığılmış amortizasiya | | -288402,12 | -110813,54 | | -399215,66 |
| 01 yanvar 2022-ci il tarixinə balans | | 448055,56 | 139726,46 | | 587782,02 |

| | | | | |
|---|---|---|---|---|
| dəyəri | | | | |
| Daxilolmalar | 148540,83 | 53670,00 | 90000,00 | 292210,83 |
| Xaricolmalar | | | | |
| Amortizasiya ayırmaları | -71591,65 | -23207,60 | | -94799,25 |
| Xaricolmalar üzrə yığılmış amortizasiya | | | | |
| 31 dekabr 2022-ci il tarixinə balans dəyəri | 525004,74 | 170188,86 | 90000,00 | 785193,60 |
| 31 dekabr 2022-ci il tarixinə ilkin dəyər | 884998,51 | 304210,00 | 90000,00 | 1279208,51 |
| Yığılmış amortizasiya | -359993,77 | -134021,14 | | -494014,91 |
| 31 dekabr 2022-ci il tarixinə balans dəyəri | 525004,74 | 170188,86 | 90000,00 | 785193,60 |

## 7. Qeyri-maddi aktivlər

| | Proqram məhsulları | Lisenziyalar | Cəmi |
|---|---|---|---|
| **01 yanvar 2021-ci il tarixinə ilkin dəyəri** | **33542,00** | **0** | **33542,00** |
| Yığılmış amortizasiya | -11076,00 | 0 | -11076,00 |
| **01 yanvar 2021-ci il tarixinə qalıq dəyəri** | **22466,00** | **0** | **22466,00** |
| Daxilolmalar | 0 | 0 | 0 |
| Xaricolmalar | 0 | 0 | 0 |
| Amortizasiya ayırmaları | -2527,38 | 0 | -2527,38 |
| Artıq tutulmuş amortizasiya ayırması qaytarılır | 2807,80 | | 2807,80 |
| **31 dekabr 2021-ci il tarixinə ilkin dəyəri** | **33542,00** | **0** | **33542,00** |
| Yığılmış amortizasiya | -10795,58 | 0 | -10795,58 |
| **31 dekabr 2021-ci il tarixinə qalıq dəyəri** | **22746,42** | **0** | **22746,42** |
| Daxilolmalar | 0 | 0 | 0 |
| Xaricolmalar | 0 | 0 | 0 |
| Amortizasiya ayırmaları | -2274,64 | 0 | -2274,64 |
| **31 dekabr 2022-ci il tarixinə ilkin dəyəri** | **33542,00** | **0** | **33542,00** |
| **Yığılmış amortizasiya** | **-13070,22** | **0** | **-13070,22** |
| **31 dekabr 2022-ci il tarixinə qalıq dəyəri** | **20471,78** | **0** | **20471,78** |

## 8. Ehtiyatlar

| | 2022 | 2021 |
|---|---|---|
| Material ehtiyatları | 2894788,12 | 2267743,71 |
| Hazır məhsul | 1532086,02 | 1103396,11 |
| **Cəmi:** | **4426874,14** | **3371139,82** |

## 9. Debitor borcları

| | 2022 | 2021 |
|---|---|---|
| Alıcılar və sifarişçilərin qısamüddətli debitor borcları | 936160,95 | 521655,85 |
| Büdcəyə qısamüddətli debitor borcları | | |
| Müxtəlif debitor və kreditorlarla hesablaşmalar üzrə debitor borcları | | |

| | | |
|---|---|---|
| Təhtəlhesab şəxslərin debitor borcları | | |
| **Cəmi:** | **936160,95** | **521655,85** |

**10. Pul vəsaitləri və onların ekvivalentləri**

| | 2022 | 2021 |
|---|---|---|
| Kassada olan nağd pul vəsaitləri | | |
| Yolda olan pul vəsaitlərti (korporativ kart hesabı) | | |
| Bank hesablarında pul vəsaitləri | 444443,88 | 162174,66 |
| | **444443,88** | **162174,66** |
| Bank hesablarında pul vəsaitlərindən: | | |
| • Milli valyutada bank hesabları | 444443,88 | 162174,66 |
| • Xarici valyutalarda bank hesabları | | |

**11. Səhmdar kapital**

| | Səhmlərin sayı (ədəd) | Səhmin nominal dəyəri (manat) | Adi səhmlər (manat) | İmtiyazlı səhmlər (manat) | Cəmi səhmdar kapitalı (manat) |
|---|---|---|---|---|---|
| **31 dekabr 2021-ci il tarixinə** | **2** | **1525** | **3050** | | **3050** |
| Emissiya edilmiş səhmlər | | | | | |
| Emissiya gəliri | | | | | |
| **31 dekabr 2022-ci il tarixinə** | **2** | **1525** | **3050** | | **3050** |

**12. Qısamüddətli kreditor borcları**

| | 2022 | 2021 |
|---|---|---|
| Malgöndərən və podratçılara qısamüddətli kreditor borcları | | |
| İşçi heyətinə qısamüddətli kreditor borcları | | |
| Təsisçilərə kreditor borcları | | |
| Digər qısamüddətli kreditor borcları | 19670,84 | 0,00 |
| | **19670,84** | **0,00** |

**13. Sair qısamüddətli öhdəliklər**

| | 2022 | 2021 |
|---|---|---|
| Alınmış qısamüddətli avanslar | | 63233,20 |
| Sair qısamüddətli öhdəliklər | 472763,12 | 409529,92 |
| **Cəmi:** | **472763,12** | **472763,12** |

**14. Satış**

| | 2022 | 2021 |
|---|---|---|
| Əsas fəaliyyət üzrə gəlir (Topdan satışdan gəlir) | 11048173,15 | 6965429,27 |

**15. Sair əməliyyat gəlirləri**

| | 2022 | 2021 |
|---|---|---|
| Pərakəndə satışdan gəlir | 115313,25 | 305408,34 |
| Elektron ticarətdən gəlirlər | 0,00 | 20073,97 |
| Digər gəlirlər | 0,00 | 0,00 |
| **Cəmi:** | **115313,25** | **325482,31** |

**16. Satışın maya dəyərinin elementləri**

| | 2022 | 2021 |
|---|---|---|
| İşçi heyəti üzrə xərclər - əmək haqqı | 2200206,94 | 1716025,66 |
| İşçi heyəti üzrə xərclər – sosial sığorta ayırmaları | 416877,50 | 315658,96 |
| Amortizasiya | 97073,89 | 65012,60 |
| Xammal və material xərci | 5040367,00 | 2480705,39 |
| Malın dəyəri | 663938,31 | 1113964,87 |
| İcarə haqqı | 593069,44 | 591631,54 |
| Ezamiyyə xərci | 12000,00 | 25145,00 |
| Elektrik enerjisi xərci | 74455,00 | 61746,35 |
| Qaz xərci | 57530,11 | 46715,03 |
| Yanacaq xərci | 40758,64 | 45398,36 |
| Su və kanalizasiya xərci | 9016,94 | 13277,56 |
| Rabitə xərci | 21736,89 | 16101,73 |
| Bank xərci | 39924,03 | 23967,17 |
| Reklam xərci | 20201,69 | 32652,00 |
| Təmir xərci | 25660,00 | 10391,38 |
| Nəqliyyat xərci | 162450,00 | 229282,10 |
| Sığorta xərci | 41766,14 | 25376,95 |
| Əmlak vergisi | 5135,00 | 1997,00 |
| Digər xərclər | 452506,83 | 276238,79 |
| **Cəmi:** | **9974674,35** | **7091288,44** |

**17. Ümumi Mənfəət (Zərər)**

| | 2022 | 2021 |
|---|---|---|
| Ümumi Mənfəət (Zərər) | 1188812,05 | 199623,14 |

**18. Mənfəət vergisi**

Mənfəət vergisi xərci aşağıdakı komponentlərdən ibarətdir:

| | 2022 | 2021 |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | -237762,41 | -39924,63 |
| Təxirə salınmış vergi xərci | | |

MHBS-na və Azərbaycan Respublikasının vergi qanunvericiliyi arasındakı fərqlər nəticəsində maliyyə hesabatlarının hazırlanması və mənfəət vergisinin hesablanması çərçivəsində aktiv və passivlərin balans dəyəri arasında müvəqqəti zaman fərqləri əmələ gəlir. Bu müvəqqəti zaman fərqləri üzrə dövriyyələrin vergi təsiri cari ilin sonuna mövcud olmuş mənfəət vergisi dərəcəsində 20% (2021-ci il- 20%) qeydə alınır. Hazırkı maliyyə hesabatlarında təxirə salınmış vergi aktivləri və ya öhdəlikləri hesablanmamış və nəzərə alınmamışdır.

Cəmiyyət hesabat ilini mənfəətlə başa vurmuşdur.

## 19. Əlaqəli tərəflərlə əməliyyatlar

Hazırkı maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, tərələrdən biri digərinə nəzarət edə bilsin, onunla eyni qrupun nəzarəti altında olsun və ya maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

## 20. Risklərin idarə edilməsi

Cəmiyyət daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

***Kredit riski***

Cəmiyyətin kredit riski konsentrasiyası üçün potensial müzakirə mövzusu olan maliyyə aktivləri pul və debitor borclarından ibarətdir. Cəmiyyətin pul depozitləri mötəbər maliyyə idarələrində yerləşdirilmişdir.

***Bazar riski***

Cəmiyyət bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda müəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır. Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyərlərilə dəyişə bilər.

***Faiz dərəcəsi riski***

Cəmiyyətin bir çox borcları təyin olunmuş marağı ifadə edir. Bu borclarla əlaqəli maraq xərcləri sığortalanmamışdır. Rəhbərlik inanır ki, maraq normalarının daimi olmamasından irəli gələn bazar qiymətlərinə dəyişikliklər əhəmiyyətli xarakter daşımır.

## 21. Hesabat tarixindən sonra baş vermiş hadisələr

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir edə biləcək hadisələr baş verməmişdir.

Azərbaycan Respublikası Qapalı Səhmdar Cəmiyyəti QARDAŞLAR MEBEL Closed Joint Stock Company Azerbaijan Republic

| | |
|---|---|
| **Cəmiyyətin direktoru** | **H.M.Mirzəyev** |
| **Baş mühasib** | **S.Ş.Bayramova** |